"Ağstafanın füsunkar təbiəti, gözəl insanları vardır".
Heydər Əliyev

Heydər Əliyev - xalq birliyi əbədidir!

AĞSTAFA

Qəzet 1991-ci ildən çıxır | İctimai-siyasi qəzet | № 17-18 (1085) 5 oktyabr 2020-ci il | Qiyməti 50 qəpik

Ağstafa Rayon İcra Hakimiyyətinin orqanı

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev xalqa müraciət edib

- Əziz həmvətənlər.

Bu gün Cəbrayıl şəhəri və Cəbrayıl rayonunun doqquz kəndi işğaldan azad edildi. Bu tarixi hadisə münasibətilə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm.

Cəbrayıl rayonunun və işğal olunmuş digər ərazilərin azad edilməsində fəal iştirak etmiş bütün əsgər və zabitlərimizi ürəkdən təbrik edirəm. Onların qəhrəmanlığı, şücaəti nəticəsində bu gün bizim doğma torpaqlarımız bizə qayıdıb. Bu qanlı döyüşlərdə həlak olmuş bütün şəhidlərimizə Allahdan rəhmət diləyirəm, yaralı hərbçilərimizə Allahdan şəfa diləyirəm.

Uzun illərdən sonra Cəbrayıl şəhəri azad edildi. Cəbrayıl bizimdir!

Dörd il bundan əvvəl Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndi yenidən qurulmağa başlamışdır. Uğurlu əməliyyat nəticəsində azad edilmiş yüksəkliklər imkan verdi ki, Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinə sakinlər qayıtsınlar. Gözəl qəsəbə saldıq. Qəsəbənin açılışında demişdim ki, Cocuq Mərcanlı bizim yenilməz iradəmizin rəmzidir. Cocuq Mərcanlı onu göstərir ki, heç vaxt Azərbaycan xalqı işğalla barışmayacaq və bizim işğal edilmiş digər torpaqlara qayıdışımız məhz Cocuq Mərcanlıdan başlamışdır. Hesab edirəm ki, bu gün Cəbrayıl rayonunun böyük hissəsinin və Cəbrayıl şəhərinin azad edilməsi xüsusi əhəmiyyət daşıyır.

Bilirsiniz, bir həftədir ki, Azərbaycan öz ərazi bütövlüyünün bərpası uğrunda mübarizə aparır. Döyüş meydanında əsgər və zabitlərimiz qəhrəmanlıq göstərir, düşmənə sarsıdıcı zərbələr endirir, düşməni yerinə oturdur, düşməni torpaqlarımızdan qovur, canı-qanı bahasına. Bu şərəfli missiya tarixdə öz yerini tapacaqdır.

Biz bu gün xalqımızın və dövlətimizin yeni tarixini yazırıq, şanlı tarixini yazırıq. Biz bu gün tarixi ədaləti bərpa edirik. Çünki Qarabağ torpağı bizim əzəli tarixi torpağımızdır. Azərbaycan xalqı əsrlər boyu bu torpaqlarda yaşayıb, yaradıb, qurub, tikib. Ancaq uzun illər ərzində - 30 ilə yaxındır ki, erməni cəlladları torpağımızı işğal edib, bizim bütün tarixi, dini, mədəni abidələrimizi darmadağın edib dağıdıblar.

Biz bütün şəhərləri bərpa edəcəyik. Ermənilər tərəfindən dağıdılmış bütün məscidlərimizi bərpa edəcəyik. Bu bölgələrə həyat qayıdacaq. Biz ermənilər tərəfindən bizim tarixi adlarımızı dəyişdirib tarixi saxtalaşdırmaq, eyni zamanda, Azərbaycan xalqının tarixi-mədəni irsini silmək cəhdlərinə son qoyduq. Bizim yaşayış məntəqələrinin tarixi adları bərpa edilir və bərpa ediləcəkdir.

Biz öz torpağımızda döyüşürük, vuruşuruq. Bizim ərazi bütövlüyümüz bərpa edilməlidir və biz haqq yolundayıq. Bizim əsgərimiz xilaskar əsgərdir. Çünki öz doğma dədə-baba torpağını işğalçılardan azad edir.

Bu gün cəbrayıllılar, əlbəttə ki, sevinc içindədirlər, necə ki, bütün Azərbaycan xalqı. Dünən bizim qədim yaşayış yerimiz – Suqovuşan qəsəbəmiz işğaldan azad edildi. Bütün Azərbaycan xalqı bu tarixi hadisəni qeyd edirdi, bir-birini təbrik edirdi, göz yaşlarını saxlaya bilmirdi. Bu, sevinc göz yaşlarıdır. 1990-cı illərin əvvəllərində də Azərbaycan göz yaşlarını tökü b. Ancaq o, məğlubiyyət göz yaşları idi, o, faciə göz yaşları idi.

Bu gün Azərbaycan xalqı sevinc içindədir. Cəbrayıllılara və bütün Azərbaycan xalqına bu gün azad edilmiş yaşayış məntəqələrinin adlarını sadalamaq istərdim. Bu gün şanlı Azərbaycan Ordusu aşağıdakı yaşayış məntəqələrini azad edib: Cəbrayıl şəhəri, Karxulu kəndi, Şükürbəyli kəndi, Yuxarı Maralyan kəndi, Çərəkən kəndi, Daşkəsən kəndi, Horovlu kəndi, Decal kəndi, Mahmudlu kəndi, Cəfərabad kəndi.

Bu kəndlərin sakinləri, sizə müraciət edirəm, sizin həsrətinizə son qoyulur və bizim digər bütün qaçqın, köçkün soydaşlarımız bilsinlər ki, biz onları da onların dədə-baba torpaqlarına qaytaracağıq. Güc yolu ilə! Biz istəyirdik ki, bu məsələ danışıqlar yolu ilə həll olunsun, səbir göstərirdik. Danışıqlarda həmişə ədalətli mövqedə olmuşuq, bizə mənsub olanı istəmişik. Başqasının torpağında heç vaxt gözümüz olmayıb. Amma demişik ki, bu, bizimdir, xalqımızındır, millətimizindir, bizə qayıtmalıdır, danışıqlar yolu ilə qayıtmalıdır. Amma bu danışıqlar faktiki olaraq münaqişənin dondurulmasına gətirib çıxarmışdır. Yəni, buna hesablanmışdır. Otuz il ərzində danışıqlar gedə bilərmi?! Otuz il ərzində Azərbaycan xalqını belə vəziyyətdə saxlamaq olarmı?! Otuz il ərzində biz ümidlə yaşayırdıq ki, beynəlxalq birlik bu məsələni həll edəcək. Bu məsələnin həlli ilə məşğul olan ölkələr, beynəlxalq təşkilatlar öz sözünü deyəcək. Dünyanın ən ali beynəlxalq orqanı – BMT Təhlükəsizlik Şurası öz qətnamələrinin yerinə yetirilməsi üçün səy göstərəcək. Bu qətnamələr 27 ildir kağız üzərindədir. İyirmi yeddi il ərzində biz bütün dövrlərdə - danışıqların bütün dövrlərində konstruktiv mövqe göstərmişdik, ədalətli mövqe göstərmişdik. Ancaq bunun müqabilində nə gördük? Təcavüzkar daha da azğınlaşıb. Təcavüzkarın tamahı daha da böyüyüb, bizim dədə-baba torpağımıza göz dikib. Nəticədə işğal edilmiş bütün torpaqları qondarma "Dağlıq Qarabağ respublikası"na aid edib, yeni xəritələr dərc edib və bu xəritələrdə işğal edilmiş bütün ərazilər Dağlıq Qarabağ kimi təqdim edilir. Ondan sonra nə oldu? Ondan sonra bəyan etdilər ki, bir qarış torpağı Azərbaycana qaytarmayacağıq.

Biz demişdik ki, axı bu, danışıqlar predmetinə zidd olan məsələdir. Axı danışıqlarda bizim əsas ümidverici məqamımız o idi və orada göstərilirdi ki, işğal edilmiş torpaqlar mərhələli yollarla Azərbaycana qaytarılacaq. Biz də buna razılıq vermişdik ki, mərhələli yollarla qaytarılsın, sülh yolu ilə qaytarılsın. Bir mərhələdə 5 rayon qaytarılsın, ikinci mərhələdə 2 rayon qaytarılsın, sonra azərbaycanlılar Dağlıq Qarabağa qayıtsınlar, Şuşaya qayıtsınlar, ondan sonra Azərbaycan və erməni xalqları birlikdə yaşasınlar, necə ki, vaxtilə biz yaşamışıq. Bu, ədalətli mövqedir. Bu, beynəlxalq hüququn bütün normalarına uyğun olan bir mövqedir. Biz nə istəmişik ki? Bunu istəmişik və buna haqqımız çatırdı və çatır. Amma nə gördük?! Gördük ki, Azərbaycan xalqının iradəsini sındırmaq istəyirlər. Gördük ki, bizə qarşı yeni müharibə açılır, bizi yeni müharibə ilə hədələyirlər. Gördük ki, iyul ayında heç bir səbəb olmadan bizim Tovuz şəhərimiz və digər yaşayış məntəqələrimiz atəşə tutuldu, hərbçilərimiz həlak oldu, mülki vətəndaş həlak oldu. Gördük ki, avqust ayında diversiya qrupu göndərildi və o diversiya qrupunun başçısı zərərsizləşdirildi, saxlanıldı. İndi ifadələr verir, deyir göndərilib ki, terror aktları törətsin. Budurmu danışıqlar prosesinə sadiqlik?! Sonra isə, Ermənistanın baş naziri cəfəng fikirlər ortaya atır, tarixi saxtalaşdırır, öz xalqını, beynəlxalq ictimaiyyəti aldatmağa çalışır. Bir il bundan əvvəl o, "Qarabağ Ermənistandır və nöqtə" deməklə bütün danışıqlar prosesinə zərbə vurdu, onu mənasız etdi. Danışıqların formatını dəyişdirmək cəhdləri – "Qondarma, oyuncaq xunta rejimi ilə Azərbaycan danışıqlar aparmalıdır" sözləri danışıqlar prosesinə tamamilə ziddir. Adekvat cavab aldımı? Mən Minsk qrupunun həmsədr ölkələrinə, həmsədr olan səfirlərə, digər beynəlxalq təşkilatlara, Avropa İttifaqının nümayəndələrinə dəfələrlə demişdim ki, Ermənistana təsir edin, sanksiyalar tətbiq edin, təzyiq edin. Belə olmaz. Əgər güclü təsir olmasa, Ermənistan daha da azğınlaşacaq, daha da quduracaq, yeni iddialar ortaya atacaq. Eşitmədilər məni. Mən istəyirdim bu məsələ sülh yolu ilə həll olunsun. Eşitmədilər. Hesab edirdilər ki, Azərbaycan xalqı və mən – Azərbaycan Prezidenti bu vəziyyətlə barışacağam?! Hesab edirdilər ki, bizim müqəddəs şəhərimiz olan Şuşa erməni tapdağında qalacaq, mən bununla barışacağam?! Azərbaycan xalqının tarixinə zərbə vuran erməni cəlladları ilə biz danışıqlarmı aparmalıyıq? Azərbaycan xalqı təhqir edildi, Şuşada qondarma rejimin başçısı özünə "andiçmə mərasimi" keçirmişdir. Baxım görüm, indi andiçmə mərasimi harada keçiriləcək, yas mərasimini keçirəcək! İndi qaçıb siçan kimi gizlənib. Çıxsın ortalığa! Ermənistanın baş naziri gedib Şuşada, Cıdır düzündə rəqs edir, hesab edir ki, biz bununla barışacağıq?! Səhv edir! Heç vaxt biz bununla barışmayacağıq. Qondarma "Dağlıq Qarabağ respublikası"nın parlamentinin Şuşaya köçürülməsi nə deməkdir?! Yenə də Azərbaycan xalqını təhqir etmək cəhdidir. Cəbrayıla Ermənistandan yeni yolun çəkilməsi nə deməkdir?! O deməkdir ki, orada qanunsuz məskunlaşma aparılacaq. Artıq Livandan, başqa yerlərdən ermənilər gətirirlər, köçürürlər bizim qədim şəhərimizə, Şuşada yerləşdirirlər, televiziyada göstərirlər, beynəlxalq konvensiyaları pozurlar, Cenevrə Konvensiyasını tapdalayırlar. Bunlara söz deyən var?! Tapşırıq vermişəm bütün bizim xarici diplomatik orqanlara – məsələ qaldırın, BMT-də, ATƏT-də, Avropa İttifaqında, başqa təşkilatlara, deyin ki, bu, qanunsuzdur! Qanunsuz məskunlaşma cinayətdir! Buna reaksiya oldu?! Minsk qrupu bir açıqlama verdimi?! Vermədi! Avropa İttifaqı verdimi?! Vermədi! Dedi ki, bu, bizi maraqlandırmır. Maraqlandırmırsa, indi də maraqlandırmasın. İndi nə əl-ayağa düşmüsünüz? İndi nə hoqqalardan çıxırsınız? Azərbaycana qarşı iftiralar irəli sürülür, bəzi ölkələr, Avropa ölkələri bizi ittiham edirlər. Getsinlər güzgüyə baxsınlar. Bu ittihamların heç bir əsası yoxdur ki, kimsə imkan verməz Azərbaycan Dağlıq Qarabağı fəth etsin. Dağlıq Qarabağ bizimdir, bizim torpağımızdır, biz oraya qayıtmalıyıq, qayıdırıq və qayıdacağıq!

Ona görə indiki vəziyyətdə birinci günahkar Ermənistan rəhbərliyidir. Eyni zamanda, bu məsələyə biganə yanaşan və daim Ermənistanın tərəfini saxlayan və bu işğalı əbədi etmək istəyən bəzi ölkələrin dairələridir. Azərbaycan özü bu məsələni həll edir və mən 27 sentyabr hadisələrindən əvvəl Ermənistana demişdim, gəl, təkbətək vuruşaq. Baxaq kim-kimdir! İndi nə oldu? Paşinyan hər gün bir dünya liderinə zəng edir. Hər gün! Mən heç kimə zəng etməmişəm, heç bir liderə zəng etməmişəm. Təmaslarım olub, mənə zəng ediblər. Amma o, adam qalmayıb ki, zəng etməsin, yalvarmasın, emissar göndərməsin, ağlamasın, onların ayağına yıxılmasın. Bax budur bunun sonu. Əgər bizimlə normal dildə danışsaydı, bizim müqəddəs şəhərimizi mundarlamasaydı, əlbəttə, biz ümidlərlə yaşayıb çalışardıq ki, bu məsələ danışıqlar yolu ilə həll olunsun. Amma hər addım təxribat, hər addım təhqir və hesab edir ki, biz bununla barışacağıq?! İndi biz göstərdik kim-kimdir. İti qovan kimi qovuruq onları! Azərbaycan əsgəri onları iti qovan kimi qovur! İşğal edilmiş torpaqlarda Azərbaycan bayrağı qaldırılır! Onların səngərlərində Azərbaycan əsgəri dayanır! Onların postları bizim əlimizdədir! Onların tanklarını biz sürürük! Onların digər silahlı texnikaları bizim əlimizdədir, yük maşınları bizim əlimizdədir! Biz xilaskar missiyamızı icra edirik və edəcəyik!

Ermənistan rəhbərliyi yaxşı düşünsün, hələ ki, gec deyil. Bizə yeddi şərt irəli sürür. Sən kimsən ki, bizə şərt qoyasan?! İndi baxım görüm nə şərt qoyursan bizə! Yıxılıb diz çökü b yalvarırsan ki, atəşkəs bərpa olunsun. Atəşkəs Ermənistanın baş nazirinin xahişi ilə 2 il ərzində bərpa olunmuşdu. Məndən xahiş etmişdi ki, daxildə vəziyyət ağırdır, oradan-buradan məni sıxırlar, mənə vaxt verin, mən bu məsələni həll edəcəyəm, mən yeni fikirlərlə gəlmişəm. Mən keçmişdə nə olub hamısının üstündən xətt çəkmişəm, imkan verin, vaxt verin. Dedim yaxşı. Nə oldu? Bir ildən sonra çıxış edib deyir ki, "Qarabağ Ermənistandır". İndi desin "Qarabağ Ermənistandır". İndi mənə olan zənglər və zənglər əsnasında gedən söhbətlər əlbəttə ki, konfidensial xarakter daşıyır və bəzi hallarda indi soruşurlar bəs, sizin şərtiniz nədir? Mənim şərtim birdir - çıxsın bizim torpaqlarımızdan, çıxsın, qarşıdurma dayansın. Amma sözdə yox, əməldə. Desin ki, mən Azərbaycanın ərazi bütövlüyünü tanıyıram, necə ki, baza prinsiplərində bu, təsbit edilib. Desin ki, mən işğal edilmiş torpaqlardan qoşunlarımızı çıxaracağam, necə ki, baza prinsiplərində bu, təsbit edilib. Desin ki, mən Azərbaycan xalqından üzr istəyirəm və desin ki, Qarabağ Ermənistan deyil. Sonuncu şərt budur ki, qrafik versin, işğal edilmiş torpaqlardan erməni silahlı qüvvələrinin çıxarılması cədvəli verilsin bizə. Onda biz əlbəttə ki, atəşkəs rejimini bərpa edəcəyik. Halbuki indi şiddətli döyüşlər getdiyi zaman bunu etmək çətindir. Çünki biz dayansaq, onlar dayanmayacaq. Amma hər halda, bunun üzərində işləmək olar. Yoxsa ki, siz dayanın, onlara vaxt verin. Nəyə vaxt verək? Vaxt verək ki, güc toplasınlar? Vaxt verək ki, yenə də adam toplasınlar bizə hücum etsinlər? Bizi belə sadəlövh sayırlar bunlar? Vaxt verin ki, bunlar gəlsinlər danışıqlara. Mən nə lazımdır dedim, vəssalam.

Bu gün Cəbrayılın işğaldan azad edilməsi Ermənistana, onun havadarlarına dərs olmalıdır. Mən hadisələrdən əvvəl demişdim. Orada təxribat törətdi, dərs verdik, dərs olmadı. Burada təxribat törətdi, dərs verdik, dərs olmadı. Nəhayət, bu dəfə təxribat törətdi, dərs verdik, indi dərs oldu.

Biz haqq-ədalət tərəfindəyik. Biz tarixin ən şərəfli anlarını yaşayırıq. Azərbaycan xalqı qədim xalqdır. Bizim tariximizdə bir çox şərəfli anlar olub, hadisələr olub, qələbələr olub. Onların sırasında bugünkü hadisələr xüsusi yerdədir. Biz ədaləti bərpa edirik, ərazi bütövlüyümüzü bərpa edirik, Azərbaycan xalqının ümidlərini doğrulduruq və bundan sonra da doğruldacağıq. Biz haqlıyıq, biz zəfər çalacağıq! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!

Qarabağ mənimdir, sənindir,

Mənim 90 yaşım var. 1941-1945-ci illərdəki Böyük Vətən müharibəsini yaxşı xatırlayıram. Həmin müharibədə Azərbaycan oğullarının alman faşizminə qarşı göstərdikləri igidlikləri heç cür unuda bilmirəm. Bu müharibədə vətən oğullarının bir məqsədi var idi. Ölkəmizi alman faşistlərindən qorumaq, torpaqlarımızın işğal olunmasına yol verməmək.

Böyük qələbə bizimlədir

Bəli, biz bu gün də həmin hissləri yaşayır və məqsədimiz erməni işğalçıları tərəfindən işğal olunmuş torpaqlarımızı azad etməkdən ibarətdir. Buna görə heç bir dövlət bizi qınaya bilməz. Bizim başqa dövlətlərin torpaqlarında gözümüz yoxdur. Dünya dövlətlərinin əksəriyyəti bizim haqq işimizi müdafiə etməsinə, Dağlıq Qarabağın Azərbaycan torpaqları olmasını bildirməsinə baxmayaraq, erməni işğalçıları öz mənfur siyasətlərindən əl çəkmir, yaşayış məntəqələrimizi atəşə tutur, yaşayış evlərini, eləcə də sosial obyektləri dağıdırlar. Erməni işğalçılarının bu hərəkətləri bütün Azərbaycan xalqının səbrini son həddə çatdırmışdır. Bütün bunları nəzərə alan Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandanımız İlham Əliyevin fərmanı ilə Azərbaycan ordusu əks-hücum əməliyyatına başladı. Çox qısa bir vaxtda cəbhə bölgəsində yerləşən bir neçə kəndimiz düşməndən azad edildi.

Azərbaycan ordusunun göstərdiyi rəşadət biz veteranları ürəkdən sevindirdi. Biz əminik ki, rəşadətli ordumuz əks-hücum əməliyyatını sonadək davam etdirəcək və yaxın günlərdə Azərbaycan bayrağı Şuşada, Xankəndində dalğalanacaqdır. Biz veteranlar həmin xoş günləri olduqca səbirsizliklə gözləyirik. Mən əldə edilən böyük qələbəyə görə döyüş bölgəsində qəhrəmanlıq göstərən bütün hərbçilərə, Ali baş komandanımız İlham Əliyev cənablarına dərin minnətdarlığımı bildirir, onlara böyük uğurlar arzulayıram. Qələbə bizimlədir!

Fərhad Əliyev,
Ağstafa Müharibə Veteranları Təşkilatının sədri

Ağstafalılar möhtərəm prezidentimiz, Ali Baş Komandanımız İlham Əliyevə inanır, güvənir və arxalanır

Azərbaycan xalqının illərlə gözlədiyi gün gəlib çatmışdır. Bir neçə gündür ki, möhtərəm Prezidentimiz, Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı İlham Əliyevin əmri ilə 30 il işğal altında olan torpaqlarımızı azad etmək üçün Azərbaycan ordusu əks-hücuma keçmisdir. Ötən günlərdə əsgərlərimiz düşmənin əks-hücumlarına qarşı sarsıdıcı zərbələr endirmiş, işğal altında olan torpaqlarımızı azad etmək üçün uğurlu əməliyyatlar həyata keçirmişlər. Belə bir vəziyyət bütün Azərbaycan xalqını sevindirmişdir.

Ağstafa rayon İcra Hakimiyyətinin Başçısı Seymur Orucov bu günlər şəhərin mərkəzindəki S.Vurğun adına parkda rayon ictimaiyyəti ilə görüş keçirmişdir. S.Orucov görüş zamanı ağstafalılara Azərbaycan ordusunun işğal edilmiş torpaqları azad etmək üçün həyata keçirdiyi uğurlu əməliyyatlar barədə ətraflı məlumat vermiş və onların suallarını cavablandırmışdır. Görüşdə iştirak edən ağstafalılar çıxış edərək Azərbaycan Silahlı Qüvvələrinin keçirdiyi uğurlu əməliyyatdan razı qaldıqlarını bildirmiş, möhtərəm prezidentimiz, Ali Baş Komandan İlham Əliyevə inandıqlarını, güvəndiklərini və onun arxasında dayandıqları bildirmişlər.

Görüşün sonunda Rayon icra başçısı S.Orucov bildirmişdir ki, yaxın günlərdə işğal altında olan torpaqlarımız azad ediləcək, üçrəngli bayrağımız Şuşada, Xankəndində dalğalanacaqdır.

İ.Əliyev

Mən Qarabağ müharibəsinin iştirakçısıyam. Davanın nə olduğunu yaxşı bilirəm. Ölüm-dirim savaşıdır. Torpağımıza təcavüz edilib. Kəsilib, doğranıb, talanıb. Bir sözlə, murdar ayaqlarla taptalanıb. Dözmüşük, sülh istəmişik. Razılığa gəlib yenə birgə yaşamaq arzulamışıq. Bəs mənfur düşmən nə edib? Hər yerdə-xaricdə, daxilində bəyan edib ki, biz yeni ərazilər uğrunda müharibəyə hazırlaşırıq.

Qələbə bayrağını dalğalandıracağıq

Və dedikləri kimi də etdilər. Təxribata əl atıb hücuma keçdilər. Lakin uğursuzluğa düçar oldular. Çünki bizim vəziyyətimiz, daha doğrusu dövlətimiz 30 il bundan əvvəlki durumda deyil. İndi Azərbaycan güclü dövlətdir. Onun polad kimi ordusu var. Rəhbərimiz də güclü və çevik siyasətçidir. Bizim güvənc yerimiz də, and yerimiz də onlardır. Elə buna görə də təxribatın qarşısı ilk andaca alındı.

İndi biz hər saat cəbhədən xoş xəbərlər eşidirik. Qəlbimiz sevinclə dolur. Əsgərlərimizin fərasətinə, cəsurluğuna heyran qalırıq. Qürur dolu hisslər keçiririk. Ordumuz qətiyyətlə işğalçıları torpaqlarımızdan qovur, əzir, həlak edir. Mən də bir vətən oğlu kimi yenə silaha sarılıb təcavüzkara qarşı vuruşmaq istəyirəm. Ordumuza qoşulub könüllü olaraq cəbhəyə getməyi qərarlaşdırmışam. Yaxşı bilirəm ki, ordumuza əlavə kömək lazım deyil. O, öhdəsinə düşən işi bacaracaq. Ancaq biz birlikdə daha güclü, daha möhkəmik. O vaxt da, indi də mənim düşmənə nifrətim çoxdur. Görün indi onlar nə edir. Mülki əhaliyə indi də güllə atır. Bizim davamız mülki əhali ilə deyil. Biz işğalçını torpaqlarımızdan təmizləmək uğrunda mübarizə edirik.

Xalqımızın arzusu əzəli torpaqlarımıza sahib çıxmaqdır. Bunun üçün də hamımız bir olmalıyıq. İnanıram ki, birliyimizlə qələbə bayrağını Şuşada və başqa doğma yurdlarda dalğalandıracağıq.

Səlim Abdurahmanov,
Qarabağ müharibəsinin iştirakçısı



Ərazi bütövlüyümüz bərpa olunmalıdır

Çoxdan gözləyirdik bu qisas gününü. 30 il zarafat deyil. Bu müddətdə dözmüşük, səriştəsiz rəhbərlərin təqsiri üzündən torpaqlarımız işğal altında qalıb, 1 milyondan artıq soydaşımız dədəbaba yurd-yuvalarından zorla qovulub. Ana-bacılarımız, qız-gəlinlərimiz əsir düşərgələrində ömür çürüdüb, məhv olub. Şəhid məzarlarının sayı-hesabı yoxdur. Erməni faşistləri zaman-zaman terror hadisələri törədir, işğal planlarını genişləndiriblər.

Nəhayət ki, son illərdə erməni silahlı quldurlarının azğınlığı, onların cinayətləri Azərbaycan xalqının səbr kasasını daşdırdı. Saysız-hesabsız müraciətlər, iki ay əvvəl işğalçı cinayətkarların Tovuz ərazisində açıq-aşkar hücumları Ali Baş Komandanımızı yağı düşmən barədə ciddi tədbirlər görməyə, doğma torpaqlarımızı düşməndən tamamilə azad etmək barədə düşünməyə vadar etdi. Bu il sentyabrın 27-də səhər tezdən düşmən qoşunlarının Ağdam, Füzuli-Tərtər istiqamətində yenidən hücuma keçməsi möhtərəm Prezidentimiz, Ali Baş Komandan cənab İlham Əliyevin əks-hücum əmrini sürətləndirdi. Həmin gün Azərbaycan Ordusunun hər cür müasir silahlar və texnika ilə silahlamış hərbi hissələri əks-hücuma keçərək düşmən qoşunlarına ağır sarsıdıcı zərbələr endirmişlər. Ordumuz sonrakı günlərdə də hücumlarını uğurla davam etdirmiş, düşmənin əlində olan bir neçə yaşayış məntəqəsini azad etmiş, əsas mövqe və yüksəklikləri ələ keçirmiş, xeyli silah və texnikanı vurub sıradan çıxarmışlar.

Azərbaycan Ordusunun ağır zərbələri qarşısında tab gətirə bilməyən erməni silahlı quldurları əvvəlki namərdliyə əl atmışlar. Onlar yaxınlıqdakı kəndi ağır artilleriya atəşinə tutaraq mülki şəxlərə zərər verir, evləri və təsərrüfatları dağıdırlar. Nəticədə əhalinin yaşayış evləri dağılmış, mülki adamlar həlak olmuş və yaralanmışlar.

Mən özüm rayonumuzun sərhəd kəndində-Tatlıda yaşayıram. Namərd qonşularımızın təxribatlarına, işğalçılıq niyyətlərinə yaxşı bələdəm. Qarabağ münaqişəsi başlanan bu 30 ildə onlar sərhəd kəndlərin əhalisinin başına nə oyunlar açıb, nə əziyyətlərə və zülmlərə salıb, hamısını yaxşı xatırlayıram. Bizim qonşu Köhnə Qışlaq kəndini neçə dəfə atəşə tutublar, meşədə neçə adamımızı qətlə yetirib, neçə mal-qaramızı məhv edibllər. Onların xəyanəti üzündən kənd sakinlərimiz öz əkin sahələrində asudə işləyə, təsərrüfatlarında əkib-becərmə ilə məşğul ola bilmirdilər. Halbuki, ən ağır ehtiyac illərində qonşu erməni kəndlərinin əhalisi bizim kəndlərin yardımı və köməyi ilə sağ qalıb, dirçəliblər.

Mən bir ziyalı kimi indiki müharibədə ölkəmizin haqq işini ürəkdən dəstəkləyirəm. Biz öz ərazi bütövlüyümüzü bərpa etməli idik. Bu sahədə görkəmli siyasi xadim, bacarığı, uzaqgörənliyi və dərrakəsi ilə dünyada şöhrət qazanmış sevimli Prezidentimiz, Ali Baş Komandan İlham Əliyevə çox minnətdaram. Onun dilinin əzbəri olan "Qarabağ Azərbaycandır!" sözü necə izdihamlı, necə təntənəli səslənir. Bu kəlam sübut edir ki, biz qalib gələcəyik.

Vaqif Həmzəyev,
Tatlı kənd sakini



Haqq işimiz alqışlanır

İllərdən bəri gözlədiyimiz məqam artıq gəlib çatmışdır. Sentyabrın 27-də səhər tezdən işğalçı erməni ordusunun torpaqlarımıza növbəti hücumundan sonra ordu hissələrimiz zəfər yürüşünə başlamışdır. Ali Baş Komandan, Respublika Prezidenti cənab İlham Əliyevin əmri ilə düşmən həmləsinə qarşı əks-hücumlar tezliklə geniş miqyas almış, işğalçılara ağır zərbələr endirilmişdir. Bir-birinin ardınca hərbi texnika və canlı qüvvələrini itirən erməni hərbi hissələri ordumuzun vurduğu zərbələrə tab gətirməyib yeni hiylələrə əl atıb, sərhədyanı ərazilərdə yaşayış məntəqələrimizi atəşə tutur. Düşmən bu hərəkətinin də adekvat cavabını alır. İndi işğalçılar ərazimizdən qaçmağa üz tutur. Döyüşçülərimizin bu uğurları hamımızı ürəkdən sevindirir.

Cəbhədə ordu hissələrimizin qələbə xəbərləri bizim Əfqanıstan müharibəsi veteranlarını da fərəhləndirir. Onlar ordumuza kömək etmək üçün bu yaşda da döyüşlərdə iştirak etmək üçün hazır olduqlarını bildirirlər. Ancaq hələ ki, buna ehtiyac qalmadığı üçün yalnız ordumuzun uğurlu əməliyyatlarını izləməklə kifayətlənir, zəfər müjdəsini gözləyirik.

Sevindirici haldır ki, bu ağır günlərdə əhalinin əhval-ruhiyyəsi çox yüksəkdir və hamı möhtərəm prezidentimizin ətrafında sıx birləşmələrini nümayiş etdirir. Qoca da, cavan da, kişi, qadın da qüdrətli ordumuzun arxasında möhkəm dayandıqlarını, onlara hər cür dəstək olduqlarını nümayiş etdirirlər.

Fərəhli haldır ki, mütərəqqi beynəlxalq ictimaiyyət, müstəqil respublikamızın dostları haqq işimizi alqışlayır, torpaqlarımızın bütövlüyünü tezliklə bərpa edəcəklərini arzulayırlar. Yəqin ki, bu arzularımız yaxın günlərdə çin olacaq, illərdən bəri arzu etdiyimiz niyyətimizə qovuşacağıq.

İlk döyüşlərdə əldə etdiyimiz mühüm qələbələr Qarabağın azadlığına, torpaqlarımızın bütövlüyünə aparan yolun reallığına şərait yaradacaq, inşallah, işğalçı düşmən üzərində qələbə gününü elan edəcəyik.

Mirzahid Hacıyev,
Əfqanıstan Veteranları İctimai Birliyi Ağstafa filialının sədri

Ordumuzun gücünə inanırıq

Düşmən yenə öz xain xislətinə sadiq qaldı. Azərbaycana qarşı elan olunmamış müharibəyə başladı. Lakin onun özünə məxsus fikirləri, niyyəti gözündə qaldı. Düşündüyü kimi olmadı. Qüvvətli və hazırlıqlı ordumuz xaincəsinə başlanan hücumun qarşısını qətiyyətlə aldı. Ordumuz əks-hücuma keçərək ilk həmlədə düşmənə layiqli olduğu cavabı verdi.

Mən tarix müəllimiyəm və şagirdlərə düşmənimizin necə məkrli, necə alçaq niyyətli olduğunu izah edirəm. Əzəli Azərbaycan torpağı olan Qarabağa yiyələnmək məqsədi erməninin şüuruna hakim kəsilib. Onlar buna qismən nail olmuşdular. Ötən 30 il ərzində isə tam əmin olmuşdular ki, artıq Qarabağın sahibidirlər. Hələ bu az imiş kimi düşmən yeni ərazilər tutmaq üçün yeni müharibə etməyi və qələbə qazanmağı qarşılarına məqsəd qoymuşdu. Öz işğalçılıq siyasətini yeniləndirməyə səy göstərirdi.

Lakin nizami ordumuz təxribatın qarşısını əks-hücumla ala bildi. Bir neçə saat ərzində işğalda olan kəndlərimiz düşməndən təmizləndi. Düşmən isə öz xislətinə uyğun olaraq silahlarını dinc əhaliyə qarşı yönəltmişdir. Ordumuzun qarşısında tab gətirməyən düşmən şəxsi evlərə, təsərrüfatlara güllə yağdırır. Onlar elə bilirlər ki mülki əhalini hədəfə almaqla bizi zəiflədəcəklər. Lakin belə deyil. Cəbhəyanı kənd əhalisi ordumuza dəstək verib onu ruhlandırır, özləri də əsgərlərimizə qoşulub düşmənə qarşı vuruşmaq istəyir.

Mən inanıram ki, işğalçı Ermənistan ordusunun kökü elə bizim torpaqlarımızda kəsiləcək, torpaqlarımıza sahib çıxacağıq. Qələbə bizimlədir. Köçkün soydaşlarımız geri qayıdıb sakit və firavan həyatlarını yaşayacaqlar. Otuz illik həsrətlərinə qovuşub qayğısız həyat sürəcəklər.

Sədayə Bilalova,
Qaçaq Kərəm kənd tam orta məktəbin tarix müəllimi

İrəli, igidlər

Gecikmişik, çoxdan çatıb zamanı,
Qovaq Qarabağdan çəni, dumanı,
Xalqım dəstəkləyir baş komandanı,
Bəllidir düşmənin çirkin əməli,
İrəli, igidlər, ancaq irəli!

Daha çox tükənib, yoxdu səbrimiz,
Hər oğul qəhrəman-Polad, Mübariz,
İndi xalq fırtına, coşan bir dəniz,
Çoxdu Koroğlusu,qorxmaz nər, dəli,
İrəli, igidlər, ancaq irəli!

Çoxdan yolumuzu gözləyir Şuşa,
Laçınla, Kəlbəcər dayanıb qoşa,
Uşaqdan böyüyə girib savaşa,
Olsun üstümüzdə tanrının əli,
İrəli, igidlər, ancaq irəli!

Şəhid qanı axan ulu torpağa,
Azadlıq hər yurda, hər bir ocağa,
Ay Arif, yenilməz uca bayrağa,
Xankəndə əbədi qoyaq təməli,
İrəli, igidlər, ancaq irəli!

Arif Musazadə,
Tatlı kəndi

Qələbə çalacaq

Ulu öndərimin gur nəfəsində,
Mehriban xanımın incə səsində,
İlham Əliyevin hər kəlməsində
Nurlu sabahlara yaranır inam-
Qələbə çalacaq tezliklə İlham!

Xalqı da səs verir onun səsinə,
Öz böyük oğlunun əqidəsinə,
Onun inamına, düşüncəsinə
Coşan ürəklərdə ucalır nidam-
Qələbə çalacaq tezliklə İlham!

Ulu tanrım ona kömək edəcək,
Millət inanır ki, o gun gələcək,
Qaçqınlar yurduna geri dönəcək,
Tək onun gücünə qalıbdır güman-
Qələbə çalacaq tezliklə İlham!

Bəyaz Əliyevə,
qaçqın

Zəfərdir alın yazım

Həzin payız günləri
Tükəndi xalqın səbri,
Əmr verdi, rəhbəri-
Əks həmləyə keçdi
Azərbaycan əsgəri!

Qanun edir dəlalət,
Bizimlədir ədalət,
Oyun oynadı ATƏT
Gətirəcək zəfəri
Azərbaycan zəfəri!

Düşmənin ağlı azıb,
Özünə qəbir qazıb,
İlahi yazı yazıb:
-Döyüşdür alın yazım,
Zəfərdir alın yazım!

Ordu qurana alqış,
Dayaq durana alqış,
Zərbə vurana alqış,
Döyüşdür zəfər yolum,
Qarabağ səfər yolum.

Cəfər Əsgərov,
Köçəgər kəndi

bizimdir, Qarabağ Azərbaycandır!

Şəhidlər hamımızın fəxridir

Mən şəhid atasıyam. Oğlum Füzuli Kərimov 1992-ci ildə Ağdərə döyüşlərində şəhid olmuşdur. O illəri yaxşı xatırlayıram. Ağdərə uğrunda döyüşlər gedəndə oğlumu heç cürə kənddə saxlaya bilmədim. İş dalınca Gürcüstana getmişdir. Qayıdanda eşitdim ki, oğlum heç kimə heç nə demədən Bakıya getmiş, oradan cəbhəyə yola düşmüşdür. Erməni işğalçıları həmin dövrdə Qarabağ torpaqlarını işğal etmək üçün heç nəyə məhəl qoymadan soyqırım edir, dinc əhalini, qadınları, uşaqları vəhşicəsinə öldürürdülər. Həmin dövrdə oğlum Füzuli-Ağdərə döyüşlərində qəhrəmancasına həlak oldu. Yüzlərlə şəhid oğullarımız kimi o da Şəhidlər xiyabanında dəfn edildi.

O dövrdən 30 ilə yaxın vaxt keçir. Bu gün işğal olunmuş torpaqlarımızı düşməndən azad etmək üçün Qarabağ torpaqlarında gərgin döyüşlər gedir. Azərbaycan ordusu həmin torpaqları düşməndən azad etmək üşün əsl qəhrəmanlıq göstərir, erməni əsgərlərinə sarsıdıcı zərbələr endirirlər.

Müharibə elə bir şeydir ki, şəhidsiz ötüşmür. Mən eşidəndə ki, Ağdərə istiqamətində torpaqlarımızı azad etmək üçün gərgin döyüşlər gedir, düşmən ordusu darmadağın edilir, bir anlığa ürəyim dağa dönür. Özümdən asılı olmayaraq qəlbimdə qürur hissi baş qaldırır. Düşünürəm ki, qəhrəman Azərbaycan əsgərləri mənim oğlumun və həmin torpaqlarda vətən yolunda şəhid olanların intiqamını alırlar.

Bu gün Azərbaycan xalqı böyük ruh yüksəkliyi ilə yaşayır. Çünki onların arxasında İlham Əliyev kimi prezidentimiz, Ali Baş Komandanımız dayanır. Yəqin ki, yaxın günlərdə torpaqlarımız işğaldan azad ediləcək, qələbə bayrağımız Şuşada qaldırılacaqdır. Bu qələbəni bütün Azərbaycan xalqı səbirsizliklə gözləyir. Çünki möhtərəm prezidentimiz demişkən, Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!

Kərəm Kərimov,
Muğanlı kənd sakini, şəhid atası

Dərin inam hissi

Mən şəhid atasıyam-tək oğlum Adil iki il əvvəl Naxçıvanda, Kündük kəndində torpaqlarımızın bütövlüyü uğrunda gedən ağır döyüşlərdə həlak olmuşdur. Mən bir ata kimi bu döyüşlərdə oğlumun göstərdiyi igidlikdən fəxr duyuram. Onun qəhrəmanlığına Muxtar Respublika hökumətinin, onun xidmət etdiyi ordu komandanlığının, zabit və sıravi əsgər yoldaşlarının, nəhayət Respublika Prezidenti cənab İlham Əliyevin, Azərbaycan ordusu rəhbərlərinin verdikləri yüksək qiymət mənə ən böyük təsəllidir.



Bu günlərdə Ali Baş Komandanımız, möhtərəm Prezidentimiz İlham Əliyevin əmri ilə erməni terrorçularının xəyanətkar hücumuna qarşı müharibə elan etməsi mənim də ürəyimdən xəbər verdi. Bu işğalçılıq, xain hücumlar nə qədər davam etməlidir? Azərbaycan xalqı 30 ildir bu biabırçılığa dözür, hər cür beynəlxalq münaqişəni danışıqlar yolu ilə həll etməyə çalışır, insan qırğınına bais olmaq istəmirdi. Namərd erməni qonşularımız bunlara məhəl qoymur, imkan tapan kimi növbəti təxribatlar törədirdilər. Bu təxribatlarda neçə-neçə balalarımız şəhid olmuş, şəhər və kəndlərimiz xarabaya çevrilmişdir.

Erməni quldurlarının vəhşiliklərinə son qoyulmadıqca terrorçular daha da quduzlaşır, yeni qırğın və dağıntılar törədirlər. Son dəfə Tovuz bölgəsində baş vermiş terror hadisələri bu vəhşiliyin yeni nümunəsidir. Bu hadisələr bir daha sübut etdi ki, düşmən öz niyyətindən, işğalçılıq siyasətindən xoşluqla əl çəkən deyil. Bunu gözəl başa düşən Ali Baş Komandan erməni silahlı quldurlarının sentyabrın 27-də səhər tezdən törətdikləri qəfil hücuma layiqli cavab olaraq əks-hücum əmri verməli oldu.

Son günlərdə Azərbaycan ordusunun Qarabağ bölgəsində keçirdiyi uğurlu əməliyyatlar bütün ölkə vətəndaşlarının, xüsusilə də şəhid ailələrinin ürəyindən xəbər verir. Erməni faşistləri şanlı ordumuzun zərbələrinə cavab verə bilmədiklərini görüb mülki əhalimiz yaşayan məntəqələrimizə ağır top zərbələri endirir, evləri dağıdırlar. Bununla da onlar insanlığa xas olmayan sifətlərini göstərirlər.

Hər gün televiziyadan cəbhədəki vəziyyət barədə xəbərlərə qulaq asır, döyüşçülərimizin uğurlarına ürəkdən sevinirik. Sevinirik ki, respublia əhalisi bütünlüklə öz ordusunun yanındadır, onların hər qələbəsini addımbaddım izləyir. Möhtərəm prezidentimiz cənab İlham Əliyevin hər çıxışı bizdə dərin inam yaradır ki, haqq-ədalət bizim tərəfimizdə və biz tezliklə doğma torpaqlarımıza qayıdacağıq.

Əli Tatarov,
Qıraq Kəsəmən kəndində yaşayan şəhid atası

Azərbaycan Ordusunun erməni işğalçıları üzərində qələbəsinə çox az vaxt qalır. Bu qələbə bütün həmvətənlərimizdə böyük ruh yüksəkliyi yaradacaq və bu zəfər Azərbaycanın xəritəsi üzərində öz əksini tapacaqdır. Azərbaycan xalqı həmin günü səbirsizliklə gözləyir və qələbə bayrağının Şuşada, Xankəndində qaldırılacağına inanır.

Düşmənin məkrli addımı cavabsız qalmayacaq

Vətənimizin bu günündə heç kim kənarda qalmır. Hər bir kəs dövlətimizə və ordumuza əlindən gələn köməyi əsirgəməməyə çalışır. Düşmən bilməlidir ki, bizə qarşı atdığı hər bir məkrli addım cavabsız qalmayacaqdır.

Mən ürəyimdəkiləri açıb deyirəm. 27 sentyabr səhərini xoş müjdə ilə qarşıladım. Söz yox, ki, həmyaşıdlarım da, bizdən böyüklər də həmin səhərin xoş müjdəsini eşitdi ki, şanlı ordumuz düşmənin cəbhəboyu təxribatına cavab verib. İllər boyu gözlənilən hadisə baş vermişdir. Torpaqlarımız işğaldan azad olunur.

Vətən övladı kimi mən də cəbhəyə yollanıb işğalçılara qarşı vuruşmaq, şəhidlərimizin qisasını almaq istəyirəm. Yaxşı bilirəm ki, çətindir, qorxuludur. Lakin torpaq uğrunda vuruşmaq şərəfdir, qürurdur. Rəşadətli ordumuz bütün cəbhəboyu üstünlüyü ələ almışdır. Onun canlı qüvvəsi, tex nikası məhv edilmişdir. Bu bizi ruhlandırır. Ordumuzda da ruh yüksəkliyi var. Hər gələn yeni xəbərlərdə biz onun şahidiyik. Qürur mənbəyimiz olan ordumuzla fəxr edirik, ona güvənirik.

Cavan olsam da bilirəm ki, müharibənin öz qanunları vardır. Müharibədə mülki əhaliyə güllə atmaq cinayətdir. Lakin düşmən ermənilliyini bir daha büruzə verərək dinc əhaliyə güllə atır. Bu bir daha onu göstərir ki, düşmən bizim nizamlı ordu qarşısında aciz qalıb, daha gücü çatmır. Düşmən öz xislətini göstərirsə, biz də ona eyni cavabı verməliyik. Lakin ordumuz bunu özünə sığışdırmır. Onun işi işğalçı ordu ilə haqq-hesab çəkməkdir. Belə də baş verir. İnşallah, tezliklə istədiyimiz mənzərə yaranacaqdır. Üçrəngli bayrağımız əzəli torpaqlarımızda dalğalanacaqdır.

O.Aşurov,
Müharibədə vuruşmaq istəyən könüllü

107 yaşlı arxa cəbhə qəhrəmanı

Böyük Vətən müharibəsinin başa çatmasından düz 75 il keçir. Tarixin qanlı və şanlı səhifəsi olan bu müharibə heç vaxt unudulmamış və həmişə xatırlanmışdır. Çünki həmin müharibədə keçmiş SSRİ məkanında yerləşən dövlətlərin minlərlə oğulları kimi doğma Azərbaycanımızın da igid oğulları əsil qəhrəmanlıq göstərmiş, faşist Almaniyasına layiqli cavab vermişlər.

1941-ci ildə müharibə başlayanda Eynallı kənd sakini Bəhrəm Quliyev həmkəndlisi Sarabəyim Quliyeva ilə təzəcə ailə qurmuşdur. Həmkəndliləri, yaxın qohumları Bəhrəm Quliyevi müharibəyə yola salanda onun ilk övladı olan Ceyran Quliyevanın 2 yaşı hələ tamam olmamışdı. Ailədəki çətin vəziyyəti, uşağının körpə olmasını nəzərə almayan Bəhrəm kişi vətəni müdafiə etməyi hər şeydən üstün tutdu və o, birbaşa döyüş bölgəsinə yola düşdü.

Müharibə illərində arxa da cəbhə hesab olunurdu. Çünki həyat yoldaşlarını müharibəyə yola salan qadınlar çox böyük çətinliklərlə üzləşir, ağır günlər keçirirdilər. Belə çətin günləri yaşayan, övladlarını böyütmək üçün hər cür əzab-əziyyətə dözən qadınlardan biri də Bəhrəm Quliyevin həyat yoldaşı Sarabəyim xanım idi.

Sarabəyim Quliyeva həmin illərdə kənddəki Qırmızı Oktyabr kolxozunda fəhlə işləmiş, pambıqçılıqla məşğul olmuş, sevimli qızı Ceyran balanı böyütmüşdür.

1945-ci ildə Böyük Vətən müharibəsi qələbə ilə başa çatdıqdan sonra Bəhrəm Quliyev öz doğma vətəninə qayıtmış, həyat yoldaşı ilə birlikdə kolxozda işləmişlər. Bundan sonra onların həyatlarında xoş günlər başlamış, övladlarının sayı artmışdı. 1947-ci ildə Sarabəyim xanımın qızı Qənirə dünyaya gəlmiş, 1950-ci ildə oğlu Qulu, 1952-ci ildə Sadiq, 1955-ci ildə qızı Səyyarə və 1957-ci ildə halhazırda onunla birgə yaşayan Əmir Quliyev dünyaya gəlmişdir.

Quliyevlər ailəsi o qədər də imkanlı olmasalar da kəndin xeyir-şərində həmişə yaxından iştirak etmiş, övladlarını böyütmüş, onların əllərini çörəyə çatdırmışlar. O dövrdə kənddə abadlıq işlərinə bir o qədər də əhəmiyyət verilmir, quruculuq-abadlıq işləri aparılmırdı. Lakin bütün bunlara baxmayaraq Sarabəyim xanım onların yaşadıqları ev Köçəsgər kəndinə yaxın olduğuna görə 2 kəndi birləşdirən ərazidə öz vəsaitləri hesabına yol çəkdirmişdir. Kənd sakinləri bu gün də həmin yoldan istifadə edir, Quliyevlər ailəsinin bu xeyirxah işini yüksək qiymətləndirirlər.

Sarabəyim Quliyevanın həyat yoldaşı Bəhrəm Quliyev 2004-cü ildə dünyasını dəyişsə də, onun xidmətləri həmişə dövlətimiz tərəfindən yüksək qiymətləndirilmiş, müharibə iştirakçısı kimi dəfələrlə yubiley medalları ilə təltif olunmuşdur.

Bəli, bu gün Sarabəyim Quliyeva ömrünün 103-cü ilini yaşayır. Bu günlər rayon müharibə veteranları təşkilatının sədri Fərhad Əliyevlə birlikdə Sarabəyim xanımla görüşmək qərarına gəldik. Kənd sakinlərindən Quliyevlər ailəsini soruşduqda hamı onlar haqqında xoş sözlər söylədi. Sarabəyim xanımla görüşümüz olduqca maraqlı oldu. Bizi onun övladı Əmir, gəlini Pəri və nəvələri qarşıladılar. Gəlişimizin məqsədini onlara bildirdikdən sonra çay süfrəsi arxasında əyləşib xeyli söhbət etdik. Sonra Sarabəyim xanımla görüşdük. Yaş öz işini görürdü. Onun sərbəst hərəkət etmək imkanı yox idi. Çox çətinlilklə də olsa Sarabəyim xanımı stolda əyləşdirib onunla söhbət etdik. Sarabəyim xanım öz fikirlərini bizə çatdırmaq imkanına malik olmasa da oğlu, gəlini və nəvəsi onun haqqında çox söhbətlər etdilər. Məlum oldu ki, artıq 10 ildən çoxdur ki, gəlini Pəri xanım ona qulluq göstərir. O, qaynanasına baxmağı, onun hər bir qayğısına qalmağı özünə borc bilir və bununla qürur hissi keçirir. Gülərüzlü, xoşsifətli Pəri xanım bildirdi ki, nə qədər canımda can var, qaynanası Sarabəyim xanıma öz anası kimi baxacaq, ona necə lazımdır qulluq göstərəcəkdir. Bizim isə görüşümüzün sonunda Pəri xanıma son sözümüz belə oldu. Kaş, bütün gəlinlər sənin kimi olardı.

İbrahim Əliyev,
"Qızıl qələm" mükafatı laureatı

Bizim kənd məktəbi

Kəndimizdəki 624 yerlik orta məktəb binası 1982-ci ildə inşa edilmişdir. Artıq həmin vaxtdan 40 ilə yaxın vaxt keçir. Bu müddətdə məktəbimiz bir dəfə də olsun əsaslı təmir olunmamışdır. Demək olar ki, məktəbdəki vəziyyət müasir tələblərə cavab vermirdi. Belə bir vəziyyət ölkə rəhbərliyinin diqqət mərkəzindən kənarda qalmamış və məktəbimizin əsaslı təmir olunması üçün vəsait ayrılmışdır.

Yeddi aya yaxın idi ki, məktəbin binasında əsaslı təmir işləri görülürdü. Nəhayət bir neçə gün bundan öncə inşaatçıların gərgin əməyi sayəsində məktəbdə inşaat işləri tam yekunlaşdı və sentyabr ayının 15-də məktəbin qapıları müəllimlərimizin, şagirdlərin üzünə açıldı.

Mən məktəbin direktoru kimi böyük inam və fəxrlə deyə bilərəm ki, məktəbə gələn şagirdlərimiz görülmüş işləri görəndə gözlərinə inanmadılar. Çünki məktəbdə o qədər yüksək keyfiyyətli təmir işləri aparılmışdır ki, bunu sözlə ifadə etmək olduqca çətindir. Demək olar ki, məktəbdə dərslərin yüksək keyfiyyətlə keçirilməsi üçün hər cür şərait yaradılmış və avadanlıqla təmin edilmişdir.

Bu gün məktəbimizdə 358 nəfər şagird vardır. Onların təlim-tərbiyəsi ilə 51 nəfər müəllim məşğul olur. Keçən dərs ili bizim üçün uğurlu olmuş, məktəblə vidalaşan 30 nəfər şagirddən 18 nəfəri ali və orta ixtisas məktəbələrinə qəbul olunmuşlar. Mən böyük əminliklə deyə bilərəm ki, qarşıdakı illərdə ali təhsil müəssisələrinə qəbul olunacaq müdavimlərimizin sayı daha çox olacaqdır.

Mustafa Əfəndiyev,
Muğanlı kənd orta məktəbinin direktoru

Oxuculara gözəl hədiyyə

Hər il sentyabr ayının 15-də sevimli xalq şairimiz Hüseyn Arifin anım gününü qeyd etmək Ağstafamızda gözəl bir ənənəyə çevrilmişdir. Rayonumuzun poeziya pərstişkarları, ədəbi aləmin nümayəndələri, ziyalılar, mədəniyyət adamları bu il də ənənəyə sadiq qalaraq şairin vəfatının 96-cı ildönümü münasibətilə Hüseyn Arifin Ağstafadakı ev muzeyinə toplaşmışdılar. Şairin bu dəfəki anım günü onun xatirələri toplanmış yeni kitabın işıq üzü görməsi ilə bağlı olmuşdur. Yeni kitabın müəllifi uzun müddət mədəniyyət sahəsində çalışmış, sonralar bir neçə il Rayon Mədəniyyət Şöbəsinə rəhbərlik etmiş Gülgün Kərimovdur. Onu qeyd etmək lazımdır ki, Gülgün Kərimov Azərbaycan İncəsənət Universitetini bitirdikdən sonra həyatını mədəniyyət sahəsinə həsr etmiş, bu yolda taleyi onu sevimli şairimiz Hüseyn Ariflə bağlamışdır. O, gənc yaşlarından şairlə sıx əlaqədə olmuş, onun tövsiyələrinə, dəyərli məsləhətlərinə qulaq asmışdır. Aralarında xeyli yaş fərqi olmasına baxmayaraq, Hüseyn Arif Gülgün müəllimi öz yetirməsi, ən yaxın köməkçisi və əsl dostu kimi qəbul etmişdir. Bu səbəbdən onların birgə işləri keçirdikləri mənalı günlər, rast gəldikləri yaddaqalan əhvalatlar saysız-hesabsız olmuşdur.

Gülgün Kərimovun xalq şairi Hüseyn Arifə olan münasibətləri indi əziz bir xatirəyə çevrilmişdir. Gülgün müəllim bu xatirələri qələmə almaq, onları gələcək nəsillərə yadigar qoymaq qərarına bir neçə il bundan əvvəl gəlmişdi. Nəhayət ki, o, məqsədinə nail olmuş, şairlə bağlı saysız-hesabsız xatirələrinin bir qismini ayrıca kitab şəklində çap etdirmişdi. "Xatirələrdə yaşayan Hüseyn Arif" kitabı dahi şairin bu ilki anım günündə ədəbi ictimaiyyətə, Hüsen Arifi sevənlərə və onun xatirəsini əziz tutanlara ən gözəl hədiyyə olmuşdur.



Kitabda toplanmış xatirələr həyatda baş vermiş həyat həqiqətləridir. Müəllif bu xatirələri xalq şairi ilə aralarında baş vermiş əhvalatlardan və hadisələrdən götürmüş, onları qələmə alıb oxuculara çatdırmışdır. Bu xatirələr real faktlara söykəndiyi üçün şirindir, ürəyəyatandır. Bu yazıların hər birində şairin danışıq tərzi, bəzəliyi, yerli-yerində olan zarafatları tamamilə qorunub saxlanılmışdır.

Oxuculara təqdim olunan bu qiymətli xatirələr kitabının redaktoru görkəmli xalq şairi, ədəbiyyat və incəsənət xadimi Nəriman Həsənzadə, məsləhətçisi akademik, millət vəkili, əməkdar elm xadimi Nizami Cəfərovdur. Nəfis tərtibatla nəşr olunmuş kitab Bakı şəhərində, "Günəş MMC" nəşriyyatında nəşr olunmuşdur.

Ümidvarıq ki, görkəmli xalq şairimiz Hüseyn Arif haqqında xatirələrin davamına Gülgün Kərimovun imzası ilə növbəti illərdə yenə də rast gələcəyik.

F.Heydərli

Küçələr abadlaşır

Şəhərimizin yeniləşməsi, abadlaşması işi bu gün də uğurla davam etdirilir. Artıq bir neçə gündür ki, şəhərin küçə və məhəllələrinin asfaltlaşdırılması işinə başlanılmışdır. Rayon icra hakimiyyətinin memarlıq və tikinti şöbəsinin məsul işçiləri əməkdaşımıza bildirdilər ki, küçələrə qısa bir vaxtda 30 min kvadramterdən çox asfalt örtük salınmışdır. Ə. Nəbiyev küçəsində bu iş artıq yekunlaşmışdır. Yaxın günlərdə İ. Həsənov, Şəhriyar, Füzuli, O. Omarov, R. Behbudov, Q.Qarayev və digər küçələrin də aslatlaşdırılmasına başlanılacaqdır.

Bütün bunlardan əlavə şəhərin mərkəzində yerləşən S. Vurğun küçəsi 98 saylı çoxmənzilli yaşayış binasının həyətində də abadlıq işləri görülür. Sakinlər bütün bu görülən işlərdən razılıq edir və rayon rəhbərliyinə minnətdarlıq edirlər.

Azər Əlixanov

Payızlıq taxıl səpininə hazırlıq görülür

Rayonun iqtisadiyyatında mühüm yer tutan taxılçılığın inkişaf etdirilməsinə diqqət ilbəil artırılır. Ötən illərin təcrübəsi göstərmişdir ki, yüksək məhsuldarlığa nail olmaq üçün səpin aparılacaq sahələrdə yüksək keyfiyyətli şum qaldırılması mühüm əhəmiyyət kəsb edir.

Ötən təsərrüfat ili bu sahədə rayonumuz üçün o qədər də uğurlu olmasa da, sahələrdə əkilmiş arpa və buğda itkisiz tədarük olunmuşdur. Belə ki, 5555 hektar buğda əkilmiş sahələrin hər hektarında 36,4 sentner, 1526 hektar arpa sahəsinin hər hektarından 28 sentner məhsul əldə olunmuşdur. Rayonun Göycəli, Pirli, Qırlı kəndlərində məhsuldarlıq daha yüksək olmuşdur.

Artıq bir neçə gündür ki, rayonun kəndlərində payızlıq taxıl səpini aparılması üçün tarlalarda şum qaldırılması işinə başlanılmışdır. Rayon Aqrar İnkişaf Mərkəzinin bitkiçilik sektorunun müdiri Çingiz Məmmədov bu günlər əməkdaşımıza müsahibə verərərək bildirdi ki, bu il rayonun kəndlərində payızlıq taxıl səpini üçün 2550 hektar sahədə şum qaldırılması planlaşdırılmışdır. İşlərin yüksək keyfiyyətlə aparılması üçün bütün qüvvələr səfərbər olunmuş, əkin-səpin texnikaları tam hazır vəziyyətə gətirilmişdir. Bu il rayonda 8000 hektar sahədə taxıl səpilməsi nəzərdə tutulur. Artıq bir neçə gündür ki, bu məhsul işə başlanılmışdır. Oktyabr ayının sonuna kimi bütün kəndlərdə payızlıq taxıl səpini üçün şum qaldırılması işi tam yekunlaşacaqdır.

Q.Qurbanov

Kartof yığımı davam edir

Kartof ikinci çörəkdir. Bu dəyərli kəlamı söyləyənlər heç də səhv etməmişlər. Çünki elə bir gün olmaz ki, insanlar çörəkdən və kartofdan istifadə etməsinlər. Əvvəllər bu gəlirli sahənin inkişaf etdirilməsinə rayonda bir o qədər də əhəmiyyət verilməmiş, başqa əkinçilik məhsullarına nisbətən kartof əkilmiş sahələr azlıq təşkil etmişdir. Lakin son illər bu sahəyə də diqqət bir qədər artırılmış və rayonda kartof əkini sahələri genişləndirilmişdir.

Cari ildə rayonun kəndlərində 697,5 hektar sahədə kartof əkilmişldir ki, bu da əvvəlki illərdəkinə nisbətən xeyli çoxdur. Bir neçə gündür ki, kəndlərdə kartof yığımına başlanılmışdır. Ötən müddətdə rayonda 300 sentnerdən çox məhsul tədarük olunmuşdur. Rayonun Eynallı, Qırlı kəndlərində, Saloğlu qəsəbəsində hər hektardan tədarük olunan məhsul digər kəndlərdəkinə nisbətən daha çoxdur. Kartof yığımı davam edir.

Maldarlıqda süni mayalanma əsas amillərdən biridir

Uzun illərin təcrübəsi göstərmişdir ki, heyvandarlıqda aparılan süni mayalanma həmişə öz müsbət nəticəsini verir. Bunu nəzərə alaraq son illər rayonda mal-qaranın süni mayalanması işinə xüsusi diqqət yetirilir. Təkcə belə bir faktı göstərmək kifayətdir ki, 2019-cu ildə rayonda 1210 baş mal-qarada süni mayalanma aparılmış və nəticədə 754 baş buzov əldə edilmişdir. 2020-ci ildə də bu iş uğurla davam etdirirlir. Hazırda 724 baş doğar inəklərdə süni mayalanma aparılmış və bunun nəticəsində mal-qara arasında doğuş 70 faiz təşkil etmişdir. Rayon Aqrar İnkişaf Mərkəzindən əməkdaşımıza bildirdilər ki, gələcəkdə bu sahəyə diqqətin daha da artırılması nəzərdə tutulur.

Aydın Tağızadə - 70

Rayonun el ağsaqqalı

Aydın İbrahim oğlu Tağızadə 1950-ci ildə Ulu Oğuzların əzəli torpaqları olan Göyçə mahalında ziyalı ailəsində anadan olmuşdur. Orta məktəbdə müəllim, Ağstafa rayon İdman Komitəsinin sədri, Ağstafa Gömrük idarəsində şöbə rəisi, "Ağstafa" qəzetində müxbir, Azərbaycan Milli Elmlər Akademiyasında elmi işçi, S.Şükürov adına Ağstafa şəhər 3 saylı tam orta məktəbində direktor vəzifələrində çalışmışdır. SSRİ İdman Ustası, Azərbaycan Respublikasının Bədən Tərbiyəsi və İdman Əlaçısıdır.

Aydın Tağızadə 1970-ci ildə hərbi xidmətdə olarkən Lenin yübileyi medalı ilə təltif olunmuşdur. Ədəbi və publisistik fəaliyyətinə görə "Qızıl qələm" media mükafatına, Üçüncü Uluslararası Çukurova Türk Dünyası şeir və musiqi festivalında iştirakına görə Çukurova Ədəbiyyat Qurumunun mükafatına, Mərkəzi Asiya Yazıçılar və Tarixçilər Birliyinin "Turan Birliyi" medalına layiq görülmüşdür. Aydın Tağızadə Azərbaycan Yazıçılar Birliyinin və Azərbaycan Jurnalistlər Birliyinin üzvüdür.

Təzəcə doğulan körpə özünü görə bilmir. Özgələr görür. Ilk dəfə işığı görür, gözünü qamaşdıran və onu çaşdıran Günəş işığını. İnsan da təzəcə doğulan əl boyda bir Günəşdir. Hər doğulan Günəşin öz qürubu var. Və insan ömrü dan yeri ilə qürub arasında, göy üzündə yağışın, küləyin və əlahəzrət Zamanın silib aparacağı əyri bir qövsdən- işıqdan başqa bir şey deyil.

Yolumuz qüruba doğrudur. Nə qədər qəribə görünsə də biz irəliyə deyil, geriyə qayıdırıq. Bu yolda ən böyük təsəlli, ən etibarlı arxa, ən sadiq dost yenə də sözdür. Hər söz isə bir addımdır… Və Aydın İbrahimoğlunun şeirləri onun addımlarının şəkilləridir. Bu şəkillər adi fotoqrafın çəkdiyi şəkillər deyil, narahat bir rəssamın ürəyinin qanıyla çəkdiyi rəsmlərdir. Bu rəsmlərdə- şeirlərdə diqqəti çəkən üç əsas detal, üç əsas obraz var: zirvələrə doğru gedən dolanbac Yol, dağlara doğru gedən on üç-on dörd yaşlı bir oğlan uşağı, uzaqlarda- uca dağlar arxasında qürub edən bir Günəş. Mənə elə gəlir ki, hələ dərdləri ilə yol gedən bu oğlan Günəşin qürubuna kimi o uca dağların başına çatmaq istəyir. Elə bir vaxtda çatmaq istəyir ki, hələ el-oba yatmamış olsun, hələ çiçəklər solmamış olsun, hələ kol dibindən bənövşələrin ətri gəlsin.

A. İbrahimoğlu üçün "qayıtmaq" təkcə keçmişə qayıtmaq deyil, Göyçəyə qayıtmaqdır, itirilmiş Vətənin bir parçasına qayıtmaqdır, dağlara qayıtmaqdır, ata-ana qucağına qayıtmaqdır. Və yenidən doğulmaqdır, yenidən dünyaya gəlməkdir.

Yollarda gözümüz yol çəkə-çəkə,
Yollar bizə baxır, biz də yollara
Bu bir həqiqətdir, həyatda bəzən,
Dağ da möhtac olur, düz də yollara.

A.İbrahimoğlunun yolu gələcəyə deyil, keçmişə qayıdır. Yetmiş yaş qocalığa gedən yolda növbəti bir pillə deyil, uşaqlığın, saflığın, məsumluğun birinci pilləsidir.

Atam-anam kaş sağ ola,
Dörd bir yanım dostla dola,
Noğul yeyəm bala-bala,
Acıx verəm uşaqlara,
Geyəm cırt-cırt çəkmələri,
Minəm ağ xallı kəhəri,
Gəzəm cənnətlər bağında-
Yaşımın əlli çağında.

Bu yolların başı üstündə əbədi bir Günəş var. Qüruba əyilən qızıl qan rəngli bir Günəş. Günəşin qürubu - insan ömrünün qürubudur. Yolların üzü günbatanadır. Günbatan öz coğrafi anlamından çıxaraq Vətənin - Göyçənin obrazına çevrilir. Günbatana qayıtmaq elə Göyçəyə qayıtmaqdır, bəxtinin Günəşi batana qədər qayıtmaqdır. Ölüm- son deyil, başlanğıcdır, Tanrıyla görüşdür. Elə bir yerdir ki, orda üzünü tut ağacına söykəyib ağlamaq olar, orda bənövşələr təzədi- tərdi, vaxt, zaman dayanıb...

A.İbrahimoğlu dərdləri ilə yol gedir. Bu yol üzü Günəşə doğrudur, üzü Haqqa doğrudur, yaxşılığa, xeyirxahlığa doğrudur.

Aydın Tağızadə haqqında məşhurlar çox sözlər demişlər. Onun gənclik illərində əldə etdiyi nailiyyətlərə görə məşhur idmançı Lev Yaşin, Valeri Papençenko, Tofiq Babanlı, Azərbaycanın tanınmış xalq şairi Zəlimxan Yaqub, xalq şairi Nəriman Həsənzadə, Azərbaycan Yazıçılar Birliyi Qazax zona bölməsinin sədri, əməkdar incəsənət xadimi Barat Vüsal çox xoş sözlər demişlər.

Bəli, bu il Aydın İbrahimoğlunun 70 yaşı tamam olur. Onunla söhbət edəndə bəlkə də eloğlumuza 70 yaş vermək olmur. Bu gün Ağstafada Aydın İbrahimoğlunu hamı idmançı, şair və müəllim kimi, el ağsaqqalı tanıyır. Onun yaradıcılığını oxuyanlar, həyat yolunu bilənlər həmyerlimizlə fəxr edir. Mən Ağstafanın bütün yazarları adından, müəllimlər adından, idmançılar adından Aydın müəllimi 70 yaşının tamam olması münasibətilə ürəkdən təbrik edir, ona daha böyük uğurlar, can sağlığı arzulayıram.

Saqif Qaratorpaq,
Ağstafa Hseyn Arif Ədəbi Məclisinin sədri

Hörmətli oxucular!

Rayonumuzun yeganə mətbu orqanı olan

"Ağstafa"

qəzetinə 2021-ci ilin birinci yarım ili üçün abunə yazılışına başlanıldı. Qəzetə rayon mətbuat yayımında və redaksiyanın özündə abunə yazıla bilərsiniz. Qəzetin yarım illik abunə qiyməti 10 manatdır.

Redaksiyanın "Kapitalbank"ın Ağstafa filialındakı hesab nömrəsi AZ04AİİB33080019445200229152, VÖEN nömrəsi isə 3600081691-dir.

Qəzetimizə abunə yazılanlara əvvəlcədən öz minnətdarlığımızı bildiririk.

Etibarsız sayılır

Xətai kənd sakini Tanrıverdiyev Faiq Müsafir oğlunun adına olan JN 909A nömrəli Torpağın mülkiyyətə verilməsinə dair Şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

* * *

Aşağı Kəsəmən kənd sakini Kəlbalayev Alməmməd Səlim oğlunun adına olan 176 nömrəli Qeydiyyat vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

* * *

Sadıxlı kənd sakini Muradova Fatma Diqran qızının adına olan 160 nömrəli Qeydiyyat vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

* * *

Ağstafa şəhər sakini Əliyev Ramil Məmməd oğluna məxsus 2615004799 qeydiyyat nömrəli, 502013045602 reyestr nömrəli Texniki pasport və reyestrdən çıxarış itdiyi üçün etibarsız sayılır.

* * *

Ağstafa şəhər sakini Əliyev Ramil Məmməd oğluna məxsus 2615004800 qeydiyyat nömrəli, 502013045607 reyestr nömrəli Texniki pasport və reyestrdən çıxarış itdiyi üçün etibarsız sayılır.

BAŞ REDAKTOR:

İBRAHİM ƏLİYEV

Həmtəsisçi:
"Ağstafa" qəzetinin jurnalist kollektivi

Şəadətnamə № 308

Redaksiya heyəti

L.Eyyubova, L.İsayeva, K.Abbasov, İ.Əliyev, S.Qaratorpaq, G.Kərimov, A.Tağızadə, F.Heydərli, Q.Qurbanov

Qəzet redaksiyanın kompyüter mərkəzində yığılmış, səhifələnmiş və "Mətbuat firması" mətbəəsində çap olunmuşdur.

Ünvan:
Ağstafa şəhəri,
Heydər Əliyev pros. - 10
Tel: 5-14-56
mob: (050) 344-26-20
Tiraj: 1000